*Ölkəmizdə dövlət gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. 1996-cı il 2 fevral tarixində ulu öndərin iştirakı ilə gənclərin birinci Forumu keçirildi. 1997-ci ildən isə Prezidentin sərəncamı ilə 2 fevral Azərbaycanda Gənclər Günü kimi qeyd olunmağa başladı. O, nitqlərində deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənc nəsil daim vətənimizin inkişafı, onun tərəqqisi haqqında düşünməlidir".*

# Şabranın vətənpərvər gəncləri

Ulu öndərin bu ideyasından bəhrələnən gənclər sonralar Azərbaycan ərazisinin bütövlüyünün təmin olunmasında böyük şücaət göstərdilər. Bu gün gənclər siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusu özünün ən şanlı və tarixi qələbəsini qazandı. Bu qələbəni, bu uğuru Azərbaycan gəncliyinin qələbəsi də hesab etmək olar. Gəncliyimizi sabaha inamla aparan, bu yolda ona böyük himayəçi və dəstəkçi olan məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz, mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimad və etibarının bariz nümunəsidir. Bu günün gəncliyi vətənpərvər, mübariz ruhlu, özünə inamlı, saf əqidəli, sağlam düşüncəli, xalqını, millətini sevən gənclikdir.

Şabran rayonunun gəncləri də bu gəncliyin kiçik bir hissəsi - respublika gənclər ordusunun fəal dəstəsidir. Öz gündəlik fəaliyyətini "2015-2025-ci illərdə Azərbaycan gəncliyinin inkişaf strategiyası"na uyğun surətdə quran Şabran Rayon Gənclər və İdman İdarəsi tərəfindən gənclərin və yeniyetmələrin vətənpərvərlik, vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi, intellektual səviyyəsinin və fiziki hazırlığının yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparılır. Bu idarənin rəhbərliyi və təşkilatçılığı ilə ötən il aktual mövzularda bir sıra tədbirlər həyata keçirilmişdir. Bu barədə **rayon Gənclər və İdman İdarəsinin rəisi Süleyman Əliməmmədov deyir:** Ötən il tərtib olunmuş "Tədbirlər planı"na əsasən müxtəlif səpkili tədbirlər həyata keçirmişik. Tarixi günlər, əlamətdar hadisələr bir qayda olaraq geniş surətdə qeyd edilir. Xüsusilə, xalqımızın keçmişini yaddaşlarda yaşadan tarixi günlər ümumrayon miqyasında qeyd edilir. Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Xocalı faciəsinin 29-cu ildönümü ilə əlaqədar "Xocalı faciəsi qan yaddaşımızdır" mövzusunda tam orta məktəblərin 8-11-ci sinif şagirdləri arasında inşa-yazı müsabiqəsi, "31 Mart soyqırımı gənc rəssamların gözü ilə" mövzusunda rəsm müsabiqəsi keçirilmiş, qaliblər Fəxri fərman və hədiyyələrlə təltif olunmuşdur.

Hərbi vətənpərvərlik mövzusu fəaliyyətimizin ana xəttini təşkil edir. Torpaqlarımızın azadlığı uğrunda gedən 44 günlük Vətən müharibəsində rayonumuzun gəncləri də qəhrəmanlıq və şücaət nümunələri göstərmiş, canlarından və qanlarından keçmişlər. Onların 28 nəfəri ağır döyüşlər zamanı şəhid olmuş, şəhadətə yüksəlmişdir. Xeyli sayda qazilərimiz var. İdarəmizin kollektivi rayonda şəhidlərin ildönümlərinin, xatirə günlərinin qeyd olunması ilə əlaqədar keçirilən bütün tədbirlərdə yaxından iştirak edir. Onu da qeyd edim ki, Şabran şəhərində və kəndlərdə şəhidlərin xatirəsi əbədiləşdirilərək onların şərəfinə abidə-kompleksləri tikilib istifadəyə verilmişdir. Məktəblərdə guşələr yaradılmışdır. Mədəni-maarif müəssisələrində, təhsil ocaqlarında rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə tarixi Zəfərimizlə bağlı müxtəlif səpkili tədbirlər keçirilir, şəhidlərin keçdiyi şanlı döyüş yolu öyrənilir. Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Şanlı Vətən!", "Müzəffər ordumuz" adlı onlayn şeir qiraəti müsabiqəsi keçirilmişdir. 30-dan çox yeniyetmə və gənc müsabiqədə fərqlənmiş, idarəmiz tərəfindən Fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunmuşdur.

Rayonumuzun idmançıları respublikamızın bir neçə Olimpiya İdman Kompleksində Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə həsr edilmiş turnirlərdə uğur qazanmış, qızıl, gümüş və bürünc medallara layiq görülmüşdür. Xaçmaz rayon Olimpiya İdman Kompleksində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Təhsil Nazirliyinin, Milli Olimpiya Komitəsinin və Azərbaycan Respublikası Məktəb İdmanları Federasiyasının birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında "Atletika" idman növü üzrə keçirilən respublika turnirinin zona yarışında Şabran rayon komandası yarışın qalibi olaraq Respublika final mərhələsində iştirak hüququ qazanmışdır. Şabran şəhər Mərkəzi stadionunda "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilmişdir. Xaçmaz şəhərində Olimpiya İdman Kompleksində çağırışaqədər və çağırış yaşlı gənclər arasında "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final yarışında rayonumuzun komandası ikinci yeri tutmuşdur.








**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**